# “Dünyanı sənət xilas edəcək”

**Xeyli vaxtdır ki, Beynəlxalq Aktivist Sənətçilər Birliyi rəsm komitəsinin sədri, tanınmış rəssam Nəvai Mətinin ideya müəllifliyi ilə ölkəmizdə “Yurdumuzu qarış-qarış gəzək” layihəsi həyata keçirilir. Sənət yürüşünün əsas şüarı “Dünyanı sənət xilas edəcək”dir.**



Aksiyaya qoşulan rəssamlar ölkəni gəzib, açıq havada təbiət eskizləri çəkirlər. Yoldan keçənlər ayaq saxlayıb sənətkarlarla tanış olur, yaranan rəsm əsərləri ilə maraqlanırlar. Nəvai Mətinin dediyinə görə, bu aksiyanın məqsədi rəngkarlığı tamaşaçıya tanıtmaqdır: “Qoy, sənət onların ayağına getsin və onları özünə cəlb etsin”.

Hələlik, son səfərləri Xızı rayonuna olub. Mikayıl Müşfiqin Ev Muzeyinin ətrafında Xızının gözəlliklərini kətana köçürməkləri orada yaşayan, ötüb keçən insanların böyük marağına səbəb olub.



Nəvai Mətinin özü də sənətə elə təbiətin qoynundan gəlib. Yəni, gözəlliklərə vurularaq onları kağıza, kətana köçürməyə başlayıb. Gələcəkdə rəssam olmağı arzulayıb. Amma, dediyinə görə, ailəsi onun rəssam olmağını istəməyib: “O vaxt insanların təsəvvüründə bir rəssam obrazı vardı – uzun saçlı, saqqallı. Atam istəmirdi ki, onun da oğlu o görkəmdə olsun. 8-ci sinifdən sənədlərimi gizlətdilər ki, Əzim Əzimzadə adına Rəssamlıq məktəbinə getməyim. Amma mən 10-cu sinfi bitirəndə sənədlərimi də götürüb evdən qaçdım”.

Rəssam olmaq arzusunu həyata keçirmək üçün gənc Nəvai instituta qəbul olunana qədər harada olduğunu ailəsinə bildirməyib: “İmtahanlarda ixtisasdan keçdim, fizikanı isə bilmirdim deyə, bileti çəkib boş səhifəni qoydum müəllimin qarşısına. Dedi: “Bir bilet də çək”. Mən də “Müəllim, onu da bilməyəcəm, fizikanı anlamıram”, – deyə cavab verdim və çantamda olan rəsmi ona göstərdim. Müəllim rəsmə baxıb bəyəndi, qabiliyyətdən yaxşı qiymət aldığımı bilincə, gülərək: – Sən elə rəssamsan, bir 3 yazım, get”, – dedi.

Rəssamlığa doğru getdiyi yolda Nəvai Mətinin qarşısına xeyirxah insanlar çıxıb, şansı açıq olub: “Ədəbiyyat imtahanının gedişatında qapı açıldı və rektorla Mərkəzi Komitənin katibi Heydər Əliyev girdi içəri. Baxdı uşaqlara, soruşdu ki, bunlar hansı sənətdən imtahan verir? Rektor Afat Qurbanov dedi ki, rəssamlıqdan, yoldaş Əliyev. Dedi bunlardan dərin imtahan götürməyin, hamısını qəbul edin. Mənim mövzum “Böyük dayaq” əsərində Rüstəm kişi obrazı idi, yazdım keçdim”.

İnstitutu bitirəndən sonra müxtəlif vəzifələrdə çalışıb, amma rəssamlıq, özünün dediyinə görə, ona rahatlıq verməyib və qayıdıb fırçadan, kətandan bərk yapışıb. Deyir, peşəmlə həyatımı qurmuşam, narazı deyiləm.

Nəvai Mətin uzun müddət Türkiyədə çalışıb, əksər şəhərlərində sərgiləri keçirilib. Bakıdakı emalatxananı 2016-cı ildə yaradıb. Müəllimi Rais Rəsulzadə olub, onun emalatxanasında şagird olub. İndi özünün yetirmələri var. Bildiklərini gənclərə öyrətməklə məşğuldur. Bakının mərkəzindəki emalatxanasında "Sədət art" studiyası yaradıb və rəssamlığa həvəsi olan gənclərə bu sənətin sirlərini öyrədir. Məkan, həmçinin ədəbiyyat adamlarının sevimli söhbətgahıdır. Emalatxanasında olduğumuz vaxt rəssamın həm əsərləri ilə, həm də tələbələri ilə tanış olduq. O, əsasən, portret və peyzaj janrında işləyir.

Əvvəldə bəhs etdiyimiz aksiya iştirakçıları isə Nəvai Mətinin rəhbərliyi ilə növbəti rayona səfərə hazırlaşırdılar.

***R.QURBANLI***
***XQ***

Xalq qəzeti .- 2023.- 21 oktyabr.- S.9.